

■ **Ramiz TƏMKİN**

## HARDA TÜRK DİLİ VARSA....

*(Azər Turana)*

Bir məclisdə şeir dedim, asta-asta, həzin-həzin,
Sual oldu haralısan, qəzəbimdən əsdi dizim.
Haralısan, bu qəribə sualdakı mənaya bax.
Bu suallar ömrüm boyu varlığımı sarsıdacaq.
Haralısan:- Bakıdanam, Gəncədənəm, Təbrizdənəm,
Qarabağdan, Naxçıvandan... Bircə sözlə mən sizdənəm.
Təbriz dedim, yaralarım qan verərək köz-köz oldu.
Göz yaşlarım leysan oldu, ümman oldu, dəniz oldu.
Dərdim bizi yarı bölən haqsızlığa ittihamdır.
Od püskürdü daxilimdən bu qəzəbdir, bu üsyandır.
Parça-parça, tikə-tikə bölsələrdə, bölünməzəm,
Məskənimdir ünyetməzlik, ucalıqdan bax, enməzəm
Şər qüvvəyə qalib gələn Məlikməmməd nağılıyam,
Mən qanımla, varlığımla Azərbaycan oğluyam.
Mən sufiyəm, hurufiyəm, dəyanətli Bektaşiyəm.
Mən Altayın, mən Kıprızın bütövlüyü-yurd daşıyam.
Atatürkün soyundanam, alışmışam çətin sönəm,
Çətin anda, sərt sınaqda, Vətən, böyük qələbənəm.
Yunis Əmrə səcdəgahım, Pirsultanım qibləgahım,
Dədə Qorqud yol bələdçim, Aşıq Veysəl söz allahım...
Nizaminin hikmətiyəm, Koroğlunun nərəsiyəm,
Keçmişimə qayıdaram, Bozqurdumu görəsiyəm...
Azər Turan heç bir zaman öz soyunu itirməz,
Türk köləlik damğası, Bozqurd zəncir götürməz!
Harda türk dili varsa, məni orda axtarın,
Harda türk yaşayırsa, məni orda axtarın!

## ALLAH ADAMI

Sağ ol dedin, sağ olmadım,
Çox al dedin, çox almadım,
Sağal dedin, sağalmadım,
Ölürəm, Allah adamı.

Axtarıram dəli kimi,
İtirdiyim bir incimi
Qəm özümün, sevincimi,
Bölürəm, Allah adamı.

Adam çoxdur, insan azdır,
Dünya özü natarazdır.
Avazın yaxşı avazdır,
Bilirəm, Allah adamı.

Sən taleyin hökmünə bax,
Budanıram budaq-budaq.
Saralıram yarpaq-yarpaq,
Soluram, Allah adamı.

Ləkə düşsə vicdanıma,
Boya məni al qanıma,
Quru bəyəm, ad-sanıma,
Gülürəm, Allah adamı.

Vərəqləyib yaddaşımı,
Tapanmıram başdaşımı.
Məlul-məlul göz yaşımı,
Silirəm, Allah adamı.

Əl tuturam yana-yana,
Bostanıma daş atana
Gündoğandan günbatana,
Gəlirəm, Allah adamı.

## MƏNİM SON NƏĞMƏMƏ HƏLƏ ÇOX QALIB

Zaman kölgəsidir dar ağacının,
Bilmirəm baharda, ya qışdayam mən.
Özündə gəzdirən ağrı-acını,
Gözünü yummayan qarışqayam mən,
Mənim son nəğməmə hələ çox qalıb.

Yoxsa, dəryaların dibinə enib,
Hardadır taleyim yazılan qutu?!
Məndən uzaqlarda bəxtim gizlənib,
Sinəmin altında sevgi tabutu.
Mənim son nəğməmə hələ çox qalıb.

Yetiş tez haraya, kəs qeylü-qalı,
Ay Adəm, hardasan?!
Ox yayı dartıb
Bəşərin taleyi tükdən asılı,
İp üstdə oynayan kəndirbaz artıb,
Mənim son nəğməmə hələ çox qalıb.

Hisslərim ağlıma kəsilib qənim,
Bəndəyəm, insanam, yaradanam mən.
Sünnülük, şiəlik qatı düşmənim,
Desinlər sadəcə müsəlmanam mən,
Mənim son nəğməmə hələ çox qalıb.

Qana çalxansa da bu gün dünyamız,
İnsanam, insana güllə atmaram.
O göy atamızdır, bu yer anamız,
Bir ana ağlasa gecə yatmaram,
Mənim son nəğməmə hələ çox qalıb.